**ŞƏFƏQ XƏZƏR**
**Sumqayıt şəhər 33 nömrəli məktəbin müəllimi**

## Olasan

Həyat çəkib məni dara,
Qəlbim olub para-para,
Ehtiyacım var o yara
Dərdimə dərman olasan.

Sahibiyəm hər bir sözün,
Səndən başqa görmür gözüm.
Könlümdəsən deyim düzün
Dərdimə dərman olasan.

Gəl toxunma sarı simə,
İstəmirəm sevgim sönə.
Şəfəq də söyləyir sənə
Dərdimə dərman olasan.

## Olmaz

Haqsızlığı gördü gözüm,
Utandı allandı üzüm,
Harda qaldı doğru sözüm?
Dünya belə nağıl olmaz!

Ayağıma daş da dəydi
Qumral gözə yaş da dəydi
Qüruruna başda əydi
Dünya belə ağıl olmaz!

Sönsə də tüstüsü yanır,
Qəlbimdə nifrət oyanır,
Dərd də qarşımda dayanır
Dünya belə dağıl olmaz!

## Naxçıvan

Sən qədim diyarın şair oğlusan,
Torpağa bağlısan, yurda bağlısan,
Düşmənin məkrindən qəlbi dağlısan,
Naxçıvan!

Ulular bu yerdə yurd-yuva qurdu,
Alimlər diyarı, şairlər yurdu.
Qızların bir Tomris, oğlun bir ordu,
Naxçıvan!

Qüdrətli ordun da düşmənə dağdı,
Ulu öndərimiz əbədi sağdı,
Şükür başın uca, üzün də ağdı,
Naxçıvan!

Şəfəq söyləyir ki, qadanı allam,
Başına dolanan pərvanən ollam,
Çağırsan yanına, yanında qallam
Naxçıvan!

## Azərbaycan qadını

Bir nağıldı dünyası,
Sərvətidir balası.
Şirindi hər laylası
Azərbaycan qadını!

Gül taxar saçımıza,
Dözər hər acımıza,
Dönər baş tacımıza
Azərbaycan qadını!

Şam kimi yanasıdır,
Suların sonasıdır,
Mərd şəhid anasıdır,
Azərbaycan qadını!

Süd verər körpəsinə,
Can deyər kəlməsinə,
Dünya möhtac səsinə,
Azərbaycan qadını!

Şəfəqin əzizidir,
Lalası, nərgizidir,
O nur yanan gözüdür
Azərbaycan qadını!

## Oldular

Gözlərin çox görüb boranı, çəni,
Hər zaman qabağa verdin sinəni,
Danışdın ağzından vurdular səni,
Haqqı, ədaləti boğan oldular!

Üz-üzə tapılmaz bizlərə batan,
Düşməndi tülkü tək kölgədə yatan,
Qeyrətsiz kəslərdi torpağı satan
Haqqı, ədaləti boğan oldular!

Zindan zəncirləri telin hörməsin,
Üstünə heç zaman itlər hürməsin,
Qoy əlin, ayağın qandal görməsin,
Haqqı, ədaləti boğan oldular!

Tarix unudulmur, silinmir izlər,
Yurd-yuvan yenə də yolunu gözlər.
Kor olsun elimə kəc baxan gözlər,
Haqqı, ədaləti boğan oldular!

## QOCALSIN

Saçlarım ağarıb belim bükülsə,
Bil ki inanmaram gözüm qocalsın,
Özümə sözlərdən bir qala qurdum,
Heç vaxt inanmaram sözüm qocalsın.
Hər sətir könlümün yadıgarıdır,
Həvəsdi, hər nədi könül barıdır,
Bağçamda yetişən şirin narıdır,
Heç vaxt inanmaram sözüm qocalsin.
Şəfəq sevgisini sözlərə verdi,
Eşqını, əhdini düzlərə verdi,
Yenə unutmadı, sizləri sevdi,
Heç vaxt inanmaram sözüm qocalsın.

## TOY HARAMIZA YARAŞIR

Qubadlı, Şuşa, Laçın.
Var torpaq dərdim, acım.
Qohum, qardaşım, bacım,
Düşmən əlində qalıb.

Adını qaraladı,
Ar namusun hardadı?!
Anan - bacın dardadı,
Düşmən dilində qalıb.

Çox gəzir Sariyanlar,
Yaran var, yox saryanlar,
Hanı dərdə yananlar?
Düşmən belində qalıb.

## Azərbaycan əsgəri

Sən ən boyuk dastansan,
Ucadan uca adsan.

Vətənə qol - qanadsan
Azərbaycan əsgəri!

Həm vuqar, həm qeyrətsən,
Dəyanət guc-qüvvətsən,
Hünərsən, həqiqətsən,
Azərbaycan əsgəri!

İgidsən, cəngavərsən,
Sən ərən oğlu ərsən,
Tarix yazan hünərsən,
Azərbaycan əsgəri!

## Loğman olmadın

Kədər yazılıb alnıma,
Zəhər qatma gəl balıma,
Cahan ağla bu halıma,
Sən mənə loğman olmadın.

Dillənərdi sarı simlər,
Dilə gəldi neçə dillər,
Xəstə yatdı ah könüllər,
Sən mənə loğman olmadın.
Mərd olasan oğlum, qızım!
Gəl dərdini qoy mən yazım,
Heç susmasın telli sazım
Sən mənə loğman olmadın.